BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№3* *Humanitar elmlər seriyası* *2025*

# ELXANİLƏR DÖVRÜNDƏ SİKKƏLƏRDƏ ŞİƏ İDEOLOGİYASININ SEMİOTİK VƏ SAKRAL KODLARI ( FARSDİLLİ MƏNBƏLƏR VƏ REGİONAL NUMİZMATİK MATERİALLAR ƏSASINDA)

**Qanira Ə.PİRQULİYEVA***

*Elxanilər dövründə (XIII–XIV əsrlər) zərb edilmiş sikkələrdə əks olunan şiə ideoloji elementlərin semiotik və sakral mahiyyəti İranın farsdilli elmi ədəbiyyatı və Azərbaycan–İran regionundan aşkar edilmiş numizmatik materialların müqayisəli təhlili əsasında araşdırılır. Tədqiqatın məqsədi Elxani sikkələrinin yalnız maliyyə dövriyyəsi aləti kimi deyil, imamət ideologiyasının ilkin legitimləşmə mexanizmlərindən biri kimi çıxış etdiyini elmi əsaslarla göstərməkdir. Məqalədə Qazan xan mərhələsində başlanmış epiqrafik transformasiyanın Olcaytu (Məhəmməd Xudabəndə) dövründə sistemli xarakter aldığı, Əbu Səid dövründə isə zərbxana şəbəkəsi vasitəsilə geniş coğrafiyaya yayıldığı əsaslandırılır. Sikkələrdə "Əli – Allahın vəlisi", "12 imam", "Sahib əz-Zaman" kimi formulların və onlara bağlı işarəvi kodların (əlif dominantlığı, nöqtə–xətt kombinasiyaları və s.) məna qatları təhlil edilir. Nəticələr göstərir ki, Elxani monetar semiotikası sonrakı Səfəvi dövründə formalaşacaq sakral-numizmatik ənənənin ideoloji bazasını yaratmışdır.*

**Açar sözlər:** Elxani sikkələri, numizmatika, şiə ideologiyası, 12 imam, sakral semiotika, zərbxanalar

**https://doi.org/10.30546/458901.2025.03.2024**

**Giriş.** Sikkələrin epiqrafik strukturu yalnız iqtisadi funksiya deyil, eyni zamanda dövlət ideologiyasının kommunikasiya aləti kimi çıxış etməsi faktı hər zaman numizmatika elminin nəzəriyyəsinin fundamental tələblərində öz əksini tapır. Belə ki, sikkələr mədəniyyətlərarası dialoqun, mövcud siyasi və dini sistemlərin vizual-simvolik təcəssümü kimi araşdırıldıqda, ikonoqrafik, epiqrafik metodlar vasitəsilə çox dəyərli maddi-mədəniyyət nümunəsi olan dəyər vahidləri-pullar həm də istifadə edildikləri zamanda cəmiyyətdəki semiotik fikirlərin, sakrallığın üzə çıxmasında mühüm rol oynayırlar.

**Materiallar və metodlar.** Elxanilər dövləti (XIII–XIV əsrlər) Yaxın və Orta Şərqdə siyasi və dini transformasiyaların intensiv şəkildə cərəyan etdiyi mərhələni təmsil edir. Monqol mənşəli Elxani hakimiyyətinin İslamı qəbul etməsi ilə dövlət ideologiyasında yeni dini-siyasi modellər formalaş-

* *Bakı Dövlət Universitetinin dosent;* p_qanira@hotmail.com*;* *ORCİD İD:* 0000-0002-2049-7902

mış, bu dəyişikliklər maddi mədəniyyət nümunələrində, xüsusilə sikkələr üzərində vizual və sakral kodlar şəklində əksini tapmışdır [1, 215]. Elxani sikkələri yalnız iqtisadi dövriyyə vasitəsi deyil, həm də dini ideologiyanın legitimləşdirilməsi üçün kütləvi kommunikasiya aləti kimi çıxış etmişdir [2, 87].

Tədqiqatın empirik bazasını Elxani dövrünə (XIII–XIV əsrlər) aid gümüş və mis sikkələr üzərində epiqrafik formulların (mətn, xətt quruluşu, zərbxana göstəriciləri, tarix və titul elementləri) müqayisəli təhlili təşkil edir. Analizdə İran farsdilli numizmatik ədəbiyyatında sistemləşdirilmiş sikkə kataloqları və tipologiyalar əsas istiqamətləndirici kimi götürülmüş, nəticələr regional dövriyyə kontekstində şərh edilmişdir [3, 12–24; 5,15–22]. Metodoloji yanaşma üç səviyyədə qurulmuşdur: (I) tarixi-siyasi kontekstləndirmə (Elxani ideoloji kursunun dəyişmələri), (II) numizmatik tipologiya (nominal, zərbxana, yazı kompozisiyası), (III) semiotik şərh (sakral ifadələrin mənalandırılması, vizual kodların identifikasiya mexanizmləri). Bu yanaşma sikkəni həm maddi mədəniyyət nümunəsi, həm də kütləvi ideoloji kommunikasiya daşıyıcısı kimi birgə qavramağa imkan verir [1, 210–218; 2, 85–92].

Sikkələr tarixi araşdırmalarda ənənəvi olaraq iqtisadi dövriyyə aləti kimi qiymətləndirilsə də, orta əsr Şərq siyasi mədəniyyətində onlar hakimiyyətin legitimləşdirilməsi üçün "rəsmi mətn" funksiyası daşıyırdı. Elxani dönəmində bu funksiya, xüsusilə aktuallaşır: çünki dövlət ideologiyası dəyişdikcə (islamlaşma, məzhəb seçimləri, imamət diskursu) həmin dəyişikliklər ən sürətli və ən geniş yayılan informasiya kanalı olan sikkə üzərində sabitləşdirilirdi [2, 99–105]. Sakral semiotika prizmasından sikkə yazıları iki əsas "kod sahəsi" yaradır: (1) teoloji formullar (şəhadət kəlməsi, imam adları, dua müraciətləri), (2) qrafik-ornamental kodlar (xəttin quruluşu, əlif dominantlığı, nöqtə-xətt kombinasiyası, kompozisiya simmetriyası). Bu kodlar savadlı auditoriya üçün oxunan mətn, savadsız təbəqə üçün isə vizual tanınma siqnalı kimi işləyir və nəticədə dini identikliyin gündəlik predmet üzərində "sabitləşdirilməsi" baş verir [5, 60–73; 3, 205–214;8].

Elxani sikkələrinin yazılarını elmi dövriyyəyə düzgün daxil etmək üçün oxunuş proseduru (de-şifrə) mühüm mərhələdir. Praktikada sikkə üzərində mətni oxumaq üçün üç istiqamət paralel aparılır: (a) titul və hökmdar adı, (b) dini formul və imamət işarələri, (c) zərbxana və tarix göstəriciləri. Bu elementlərin kompozisiya daxilində yerləşməsi bəzən nominal və zərbxana ənənəsindən asılı olaraq dəyişir. Bu səbəbdən kataloq və yoxlama siyahılarından (checklist) istifadə etməklə eyni tip yazı variantlarının paralel müqayisəsi aparılır və "variant"lar fərqləndirilir [6, 1–20; 7, 35–52]. De-şifrə mərhələsində bir başqa çətinlik kufi və nəsx xəttinin lokal yazı vərdişləri ilə bağlıdır. Xüsusilə nöqtələrin düşməsi və ya qəsdən "səssizləşdirilmiş" yazı (ornamental yazı) nümunələri mətni yalnız paleoqrafik deyil, semiotik baxımdan da şərh etməyi tələb edir. Belə hallarda mətn "tamamlama" yolu

ilə deyil, yalnız müqayisəli tipoloji analizin verdiyi təhlükəsiz nəticə ilə bərpa olunmalıdır; əks halda elmi nəticələrdə yanlış ideoloji interpretasiya riski artır [3, 200–214; 5, 70–79].

Numizmatik tipologiya: nominallar, metal və dövriyyə. Elxani dövrü sikkə sistemi müxtəlif nominal və metal qruplarına malik idi. Numizmatik kataloqlarda gümüş təngə və mis-fels tipli vahidlərin dövriyyədə xüsusi gücə malik olduğu qeyd edilir; bu, həm dövlətin fiskal siyasəti, həm də bazar münasibətlərinin genişlənməsi ilə bağlıdır [3, 40–58]. İdeoloji mətni "kütləvi" etmək baxımından da məhz geniş dövriyyəli nominal vahidlər əhəmiyyətli idi: yazının daha çox təkrarlandığı, daha geniş coğrafiyaya yayıldığı sikkələr ideoloji mesajın sosial təsir radiusunu artırırdı [2, 87–92]. Metal seçimi və yazı kompozisiyası arasında da müəyyən korrelyasiya müşahidə olunur: daha uzun epiqrafik mətnlərin gümüş nominalda yerləşdirilməsi, mis nominalda isə daha yığcam formulların seçilməsi praktik (səthin ölçüsü, yazının oxunaqlılığı) səbəblərlə bağlıdır. Bu, eyni zamanda, ideoloji mətnin "gündəlik istifadə" obyektində necə optimallaşdırıldığını göstərir: sikkə üzərində sakral məzmun texniki məhdudiyyətlər daxilində maksimum görünən hala gətirilir [3, 92–96; 5, 29–35].

Zərbxanaların strukturu. Elxani dövründə zərbxana şəbəkəsinin genişliyi və mərkəzləşmə səviyyəsi ideoloji formulların yayılma sürətini birbaşa müəyyən edirdi. Farsdilli numizmatik tədqiqatlarda Təbriz, Sultaniyyə, Marağa, Şiraz kimi iri mərkəzlərdə zərb olunan sikkələrin epiqrafik "norma" yaratdığı, regional zərbxanaların isə həmin normanı təkrar istehsal etdiyi vurğulanır [3, 180–198]. Bu baxımdan zərbxana adı sikkədə yalnız istehsal yerinin göstəricisi deyil, həm də ideoloji məkanın sərhədlərini işarələyən siyasi marker kimi çıxış edir. Olcaytu mərhələsində imamət formullarının əsas mərkəzlərdə sabit tətbiqi, daha sonra periferik dövriyyəyə keçidi ideoloji qərarın "yuxarıdan-aşağıya" kommunikasiya mexanizmini aydın göstərir [4, 165–178].

Epiqrafik formulların tipologiyası və semantik qatları. Elxani sikkələrində şiə ideologiyasını daşıyan epiqrafik mətnlərin məzmununu şərti olaraq dörd tipə ayırmaq mümkündür: (a) imamət-işarəli formullar (məs., "Əli – Allahın vəlisi"), (b) imamların adlarının siyahılanması və ya "12 imam" işarəsi, (c) esxatoloji müraciətlər ("Sahib əz-Zaman" və Mehdi inancı), (d) peyğəmbərlik–imamət sintezi yaradan birləşdirici konstruksiyalar ("Muhəmməd və Əli xeyr əl-bəşər" və s.). Bu tipologiya farsdilli kataloqlarda təsvir olunan müxtəlif nominal və zərbxana nümunələri ilə üst-üstə düşür və ideoloji məzmunun mərhələlər üzrə intensivliyini izləməyə imkan verir [3, 92–96; 4, 150–158]. Semantik baxımdan "Əli – Allahın vəlisi" formulu yalnız imamın fəzilətini bildirmir; o, siyasi hakimiyyətin sakral dayaq nöqtəsini (vilayət konsepti) maddi dövriyyə predmetinə köçürür. "Sahib əz-Zaman"

müraciəti isə gündəlik iqtisadi münasibətin içində esxatoloji gözləntini aktiv saxlayan “qoruyucu mətn” rolunu oynayır və sikkəni amuletləşdirən əsas mexanizmlərdən birinə çevrilir [1, 246–248; 5, 36–41]. Elxani sikkələrində vizual kodların ən diqqətçəkən cəhətlərindən biri xətt kompozisiyasının ideoloji “vurğu” yaratmasıdır. Əlifin kompozisiya daxilində dominant yerləşdirilməsi, nöqtələrin müəyyən ardıcıllıqla (12-lik sistemə işarə kimi) qruplaşdırılması və sözlərin simmetrik paylanması sikkə səthində sakral nizam təsiri yaradır. Bu “nizam” hissi dini mətnin məzmununu vizual olaraq gücləndirir və sikkənin qoruyucu obyekt kimi qəbul edilməsini asanlaşdırır [3, 211–214; 5, 70–79].

Amuletləşmə prosesi iki kanalla işləyir: birincisi, dua xarakterli müraciətlər (Ya Əli, Sahib əz-Zaman) vasitəsilə sikkənin “qoruyucu söz” daşıdığına inam; ikincisi, vizual tanınma və təkrarlanma sayəsində bu inamın kütləvi şüurda sabitləşməsi. Beləliklə, Elxani sikkəsi təkcə mübadilə vahidi deyil, gündəlik həyatda “bərəkət nişanı” kimi də funksionallaşır [2, 140–145; 1, 273–276].

İran farsdilli elmi ədəbiyyatda Elxani sikkələrinin epiqrafik strukturu, zərbxana sistemi və ideoloji məzmunu barədə araşdırmalar mövcuddur [3, 44–58; 4, 63–79]. Bununla yanaşı, sikkə yazılarının ideoloji dil kimi semiotik şərhi, xüsusilə şiə kodlarının sakral mənası və amuletləşmə mexanizmləri daha geniş, konseptual ümumiləşdirmə tələb edir [5, 21–30]. Elxani sikkələrində şiə ideologiyasının epiqrafik və işarəvi kodlarını müəyyənləşdirmək, onların siyasi legitimlikdə və dini identikliyin yayılmasında funksiyasını izah edərkən bir neçə mərhələ ayırmaq mümkündür.

1. Qazan xan mərhələsi: ilkin şiə kodları. Qazan xan (1295–1304) dövrü Elxani dövlətində İslamın rəsmi ideologiya kimi institusionallaşması ilə səciyyələnir. Onun həyata keçirdiyi islahatlar sırasında özünəməxsus yeri və əhəmiyyəti olan pul islahatı nəticəsində ilk dəfə  zərb edilən sikkələrdə klassik -Muhəmməd rəsul Allah-Məhəmməd Allahın Rəsuludur tipli formullarla yanaşı, imamət, şiəlik ideologiyasına işarə edən epiqrafik elementlərin meydana çıxması müşahidə olunur [3, 92]. Bəzi zərbxanaların məhsullarında – yəni yeni tip sikkələrdə “Əli – Allahın vəlisi” formulunun tətbiqi, xüsusilə elxanilərin siyasi mərkəzlərdə şiə icmalarının ideoloji inteqrasiyasına yönəlmiş xəttin göstəricisi kimi izah edilir [4, 101].

Qazan xan sikkələrində ayrıca diqqət çəkən məqam “Muhəmməd və Əli xeyr əl-bəşər"” tipli birləşdirici formulun istifadəsidir. Bu cür konstruksiya peyğəmbərlik və imamət ideyasını paralel şəkildə təqdim edir və legitimliyin ikiqat sakral əsasını vurğulayır [2, 103]. Semiotik baxımdan burada məqsəd dini mesajın “mərkəzi fikir” şəklində yığcamlaşdırılması, mətnin isə sikkənin dövriyyə miqyası qədər geniş auditoriyaya çatdırılmasıdır. Beləliklə, Elxanilər dönəmində bütün dövlətin ərazisində, həmçinin beynəlxalq

miqyaslı ticarət əlaqələrində ilk dəfə islam təriqəti işarələri, konkret olaraq, elmi ədəbiyyatda imami, şiə kodlarının ilkin səviyyədə sikkələrdə dövriyyəyə gətirilməsi mühüm yenilik mərhələsi kimi qiymətləndirilə bilər.

2. Olcaytu dövrü: 12 imam sisteminin monetar kodları. Olcaytu (1304–1316) dövrü Elxani dövlətində şiəliyin -on iki imam xəttinin ideoloji diskursda ön plana çəkildiyi mərhələ kimi xarakterizə olunur. Mənbələrdə Olcaytunun dini-siyasi kursunun sikkə zərbi praktikasına birbaşa təsiri qeyd edilir [4, 154]. Bu mərhələdə sikkələr üzərində "On iki imam" ideyasını bildirən formulların, eləcə də imamətə bağlı müraciətlərin sistemli tətbiqi müşahidə olunur [3, 165]. Olcaytu sikkələrində 'Sahib əz-Zaman' müraciətinin görünməsi Mehdi inancının dövlət ideologiyası çərçivəsində sakral legitimləşmə alətinə çevrildiyini göstərir [1, s. 246]. Semiotik təhlil baxımından bu müraciət sikkənin "qoruyucu mətn" funksiyasını gücləndirir: sikkə həm iqtisadi əməliyyat vahidi, həm də gündəlik məişətdə şəxsi sakral predmet kimi qavranılır. Elxanilərin numizmatik ənənəsində bu tip nümunələr təbrik sikkələri kimi də dəyərləndirilir [5, 39; 9, 93-96].

Beləliklə, Olcaytunun hakimiyyəti mərhələsində Elxani monetar sistemi ideoloji kommunikasiya alətinə çevrilərək, sonrakı dövrlərdə davam edəcək sakral-numizmatik ənənənin əsasını formalaşdırır.

3. Əbu Səid dövrü: ideoloji davamlılıq və zərbxana şəbəkəsi. Əbu Səid Bahadır xan (1316–1335) dövründə Olcaytu mərhələsində formalaşmış epiqrafik kodlar qorunub saxlanılır və zərbxana şəbəkəsi vasitəsilə geniş coğrafiyaya yayılır [3, 192]. Bu mərhələnin sikkələrində imamətə işarə edən formulların sabit şəkildə təkrarlanması ideoloji proqramın institusional xarakter aldığını göstərir [4, 177].

Təbriz, Sultaniyyə, Marağa, İrəvan və Şiraz kimi zərbxanalar ideoloji kodların yayılmasında aparıcı mövqedə çıxış etmişdir [5, 68]. Zərbxana adlarının sikkələr üzərində qeyd edilməsi yalnız iqtisadi mənsubiyyət işarəsi deyil, eyni zamanda ideoloji məkanın sərhədlərini göstərən siyasi işarədir. Regional dövriyyədə olan sikkələr üzərində eyni formulların qorunması Elxani ideoloji əsasının standartlaşdırıldığını və bütövlükdə qəbul edildiyini, yayıldığını təsdiq edir.

4. Sakral simvolika və amuletləşmə. Elxani sikkələrinin ideoloji dili yalnız mətnlə məhdudlaşmır; işarəvi kodlar da sakral semantikanın qurulmasında iştirak edir. "Ya Əli" və "Sahib əz-Zaman" tipli dua xarakterli müraciətlərin dövriyyədə rəsmi çəkildə istifadə edilən gümüş "təngə" vahidləri adlı yeni sikkələrdə görünməsi həm də sikkənin qoruyucu obyekt kimi insanlar-təbəələr tərəfindən qəbul edilməsi və şüur olaraq qavranılması ideyasını gücləndirmişdir [1, 273; 6; 7]. Bu məqam həm də sikkənin sosial funksiyasını genişləndirir: sikkə ticarət mübadiləsi ilə yanaşı, gündəlik həyatda xüsusi bərəkət işarəsi, "xeyir-dua daşıyıcısı" rolunu oynayır [2, 141].

Elxanilərin hərtəfəli istifadə etdiyi əlifba-sikkələrdəki İşarələr sistemdə ərəb əlifbasının ilk müqəddəs sayılan -əlifin vizual dominantlığı və 12 imam ideyasının nöqtə–xətt kombinasiyaları ilə kodlaşdırılması xüsusi diqqət tələb edir [3, 211]. Görünür, bu kodlaşdırma üsulu savadsız təbəqələr üçün vizual tanınma yaratmaqla, dini kimliyin gündəlik obyektlər vasitəsilə sabitləşdirilməsinə xidmət edirdi. Beləliklə, Elxani sikkələrinin simvollaşdırma-amuletləşdirmə sonrakı dövrlərin sakral-numizmatik ənənəsi üçün konseptual baza yaratmışdı.

5. Regional materiallar: Azərbaycan–İran arealında yayılma. Müasir Azərbaycan–İran ərazilərində aşkar edilmiş Elxani sikkələri ideoloji kodların regional yayılmasını izləməyə imkan verir. Nümunə kimi, Təbriz və Marağa numizmatik materiallarında imamət formullarının daha sabit görünməsi bu mərkəzlərin ideoloji kommunikasiya qovşaqları olduğunu göstərir [3, 232]. Ərdəbil və Şamaxı kimi ərazilərdə rast gəlinən nümunələr isə ideoloji mesajın yalnız mərkəzdə deyil, regional dövriyyədə də standartlaşdırıldığını təsdiq edir [2, 158;10]. Regional təhlil göstərir ki, zərbxanalar şəbəkəsi Elxani ideologiyasının yayılmasında sikkələr üzərindəki rəsmi mətndən coğrafiyaya keçidi təmin etmişdir: yəni elxanilərin islahat sonrası sikkələri üzərindəki dini məzmunlu epiqrafik formula bir tərəfdən ölkədəki dini-siyasi mənanı sabitləşdirir, digər tərəfdən dövriyyə miqyası qədər geniş arealda həmin mənanı təkrar istehsal edirdi [5, 83].

**Qeydlər və elmi müqayisə.** Elxani numizmatikasının tədqiqində klassik numizmatik təsnifat (nominal–zərbxana–tarix) ilə ideoloji şərhin inteqrasiyası xüsusi əhəmiyyət kəsb edir. Farsdilli elmi ədəbiyyat daha çox korpuslaşdırma və tipoloji təsvir xəttində (zərbxana şəbəkəsi, yazı variantları, titul formaları) sistemləşmə aparır [3, 44–58; 5, 21–30]. Bu məqalədə isə həmin korpuslaşdırma nəticələri sakral-semiotik oxunuşla tamamlanır: yəni mətnin "nə yazıldığı" ilə yanaşı "niyə yazıldığı" və "kim üçün yazıldığı" sualları da interpretasiyanın mərkəzinə çəkilir. Bu yanaşma Elxani sikkələrinin yalnız tarixləndirmə materialı deyil, ideoloji mətn kimi oxunmasının metodoloji əsasını yaradır [1, 215–218; 4, 148–152]. Həmçinin numizmatika üzrə beynəlxalq yoxlama siyahıları və klassik kataloq ənənəsi Elxani sikkələrinin variantlarını "mətn" səviyyəsində dəqiq identifikasiya etməyə kömək edir. Bu materialın yerli korpuslarla uzlaşdırılması regional tapıntıların tarixləndirilməsi və ideoloji interpretasiyası üçün əlavə etibarlılıq verir [6, 1–20; 7,35–52]. Beləliklə, müasir elmi ədəbiyyatla müqayisədə bu məqalənin məqsədi mövcud təsnifat nəticələrini (kataloq, nominal, zərbxana) ideoloji-semiotik şərhə açaraq Elxani monetar sisteminin sakral kodlarını daha bütöv şəkildə izah etməkdir.

Azərbaycan–İran arealından əldə olunan materiallar Elxani sikkələrinin ideoloji proqramını regional səviyyədə izləməyə imkan verir. Təbriz və

Marağa nümunələrinin daha sabit imamət formulları ilə seçilməsi bu şəhərlərin həm siyasi, həm də ideoloji kommunikasiya mərkəzləri olduğunu göstərir [3, 226–233]. Ərdəbil və Şamaxı kimi daha geniş regional dövriyyə zonalarında aşkar edilən sikkələr isə ideoloji fikirlərin yalnız paytaxt tipli mərkəzlərlə məhdudlaşmadığını, ticarət yolları və bazar şəbəkəsi vasitəsilə periferiyaya daşındığını sübut edir [2, 156–160; 10, 88–95].

Bu kontekstdə diqqətəlayiq məqam odur ki, eyni epiqrafik formulun müxtəlif zərbxanalarda təkrar istehsalı ideoloji standartlaşdırmanın göstəricisidir. Standartlaşdırma isə həm fiskal nəzarəti, həm də dini-siyasi fikirlərin sabitliyini təmin edən dövlət mexanizmi kimi çıxış edir [4, 175–179].

Elxani monetar semiotikası sonrakı Səfəvi dövründə (XVI–XVII əsrlər) institusional şiə ideologiyasının sikkə üzərində sistemli şəkildə ifadə edilməsi üçün ideoloji baza yaratmışdır. Safəvi dövlətinin rəsmi şiəlik-qızılbaşlıq, imamilik siyasəti sikkə yazılarında imamət və vilayət konseptlərini daha da genişləndirərək dövlət simvolikasının mərkəzinə çıxarmışdır [8, s. 41–55]. Bu ardıcıllıq Elxani mərhələsində formalaşmış epiqrafik yazılarda – xüsusilə imam adları və sakral müraciətlərin – sonrakı dövlətçilik modelinə keçidini göstərir. Azərbaycan numizmatika məktəbi çərçivəsində də bu ardıcıllıq orta əsr siyasi mədəniyyətinin əsas xətti kimi qiymətləndirilir [9, s. 110–118; 10, s. 200–206].

Elxani sikkələri üzərində şiə ideologiyasının görünməsi, sırf dini meylin ifadəsi olmaqdan daha çox, legitimlik axtarışının "maddi mətn"ə çevrilməsi kimi izah edilə bilər. Orta əsr müsəlman siyasi mədəniyyətində hökmran titul, dua və dini formul bir-birini tamamlayan legitimləşdirmə elementləridir. Elxanilər kimi mənşəcə monqol olan bir hakimiyyətin yerli əhali ilə ideoloji inteqrasiyası üçün məhz sikkənin seçilməsi təsadüfi deyil: sikkə bazar və vergi sisteminə daxil olan hər kəsin əlindən keçən "daimi elan lövhəsi"dir. Bu mexanizm farsdilli mənbələrdə göstərilən ideoloji kurs dəyişiklikləri ilə (islamlaşma, imamət vurğusu və s.) uyğun gəlir [2, s. 99–105; 4, s. 148–158]. Bununla yanaşı, imamət diskursunun sikkə üzərinə daşınması ictimai şüurda dini identikliyin gündəlik praktikalarla bağlanmasına gətirib çıxarır. Əgər məscid və mədrəsə dini bilginin istehsal məkanıdırsa, sikkə bu bilginin gündəlik dövriyyədə yayılma vasitəsidir. "Sahib əz-Zaman" kimi müraciətlər təkcə esxatoloji ideyanı xatırlatmır, həm də iqtisadi münasibətlərə "müqəddəslik" haləsi əlavə edir: alış-veriş aktı, beləliklə, "sakral söz"lə müşayiət olunan sosial hərəkətə çevrilir [1, s. 246–248; 5, s. 36–41]. Müzakirə üçün mühüm məqamlardan biri də məzhəb siyasətinin dalğalanmalarının sikkə mətninə necə yansımasıdır. Qazan xan mərhələsində formullaşdırılan ilkin kodlar Olcaytu dövründə sistemləşir və daha aydın imamət məzmunu qazanır; sonrakı mərhələlərdə isə kodların saxlanması və ya yumşalması zərbxana şəbəkəsinin gücü və siyasi mərkəzlərin dəyişməsi ilə əlaqələndirilə

bilər [3, s. 180–198]. Bu baxımdan sikkə materialı siyasi tarix üçün “xronoloji indikator”, dini tarix üçün isə “ideoloji temperatur” göstəricisi kimi oxuna bilər: hansı formulun nə vaxt, hansı məkanda intensivləşməsi ideoloji qərarların praktikaya necə çevrildiyini nümayiş etdirir [5, s. 60–73].

**Nəticə.** Aparılmış tədqiqat göstərir ki, Elxanilər dövründə sikkələr yalnız iqtisadi dövriyyə vasitəsi deyil, həm də şiə imamət ideologiyasının ilkin legitimləşmə mexanizmi kimi çıxış etmişdir. Qazan xan mərhələsində başlayan ideoloji transformasiya Olcaytu dövründə sistemli xarakter almış, Əbu Səid mərhələsində isə zərbxana şəbəkəsi vasitəsilə geniş coğrafiyada sabitləşmişdir [1, s. 295; 4, s. 233]. Elxani sikkələrində “Əli – Allahın vəlisi”, “12 imam adları” 'Sahib əz-Zaman' kimi formullar və onlara bağlı işarəli kodlar dini identikliyi kütləvi şüura vizual yollarla ötürmüş, sikkənin amuletləşmə funksiyasını gücləndirmişdir [3, s. 246; 5, s. 79].

Tədqiqatın elmi yeniliyi Elxani numizmatikasının vahid semiotik–sakral ideoloji sistem kimi təqdim edilməsində və Səfəvi dövründə formalaşacaq sakral-numizmatik ənənənin ideoloji bazasının Elxani mərhələsində qurulduğunun əsaslandırılmasındadır. Tətbiqi əhəmiyyəti orta əsr Azərbaycan və İran siyasi mədəniyyətinin, dini ideologiyanın maddi mədəniyyət üzərində təzahür formalarının öyrənilməsinə töhfə verməsidir.

## ƏDƏBİYYAT


1. زرین‌کوب، عبدالحسین. تاریخ ایران بعد از اسلام. – تهران: امیرکبیر، ١٣٩٣. – 512 ص
2. اقبال آشتیانی، عباس. تاریخ ایلخانان. – تهران: انتشارات علمی، ١٣٩٠. – 367 ص
3. نصیری، محمدرضا. سکه‌های ایلخانی. – تهران: پژوهشگاه علوم انسانی، ١٣٩٢. – 240 ص
4. جعفریان، رسول. تشیع در عصر ایلخانان. – قم: نشر معارف، ١٣٩٦. – 284 ص
5. یغمائی، حبیب. بررسی سکه‌های ایلخانی. – تهران: بنیاد فرهنگ ایران، ١٣٩١. – 198 ص
6. Album, S. Checklist of Islamic Coins. – Santa Rosa: Stephen Album Rare Coins, 2011. – 410 p.
7. Lane-Poole, S. Coins of the Mongol Dynasties. – London: British Museum Press, 2004. – 280 p.
8. Newman, A. Safavid Iran: Rebirth of a Persian Empire. – London: I.B. Tauris, 2006. – 312 p.
9. Сейфеддини М.А. Монеты Ильханов XIV века. - Баку:АН Азербайджанской ССР,1968.– 218 с.
10. Pirquliyeva Q.Ə., Cəfərov M. Numizmatika: dərs vəsaiti. – Bakı: Füyuzat, 2024. – 220 s.


## СЕМИОТИЧЕСКИЕ И САКРАЛЬНЫЕ КОДЫ ШИИТСКОЙ ИДЕОЛОГИИ НА МОНЕТАХ ЭПОХИ ИЛЬХАНОВ (НА ОСНОВЕ ПЕРСОЯЗЫЧНЫХ ИСТОЧНИКОВ И РЕГИОНАЛЬНЫХ НУМИЗМАТИЧЕСКИХ МАТЕРИАЛОВ)


**Ганира А. ПИРГУЛИЕВА**


### РЕЗЮМЕ


В статье рассматриваются семиотические и сакральные элементы шиитской идеологии, отражённые на монетах эпохи Ильханов (XIII–XIV вв.), на основе сопоставления персоязычных исследований и региональных нумизматических материа-

лов Азербайджано–Иранского ареала. Цель исследования – показать, что Ильханские монеты функционировали не только как средство обращения, но и как механизм ранней идеологической легитимации имамата. Обосновывается, что эпиграфическая трансформация, начавшаяся при Газан хане, приобрела системный характер при Олджайту (Мухаммад Худабенде) и закрепилась при Абу Саиде через сеть монетных дворов. Анализируются формулы 'Али – вали Аллаха', 'двенадцать имамов', 'Сахиб аз-Замана', а также их знаковые коды (доминирование алифа, точечно-линейные комбинации и др.) делается вывод, что монетарная семиотика Ильханов подготовила идеологическую базу сакрально-нумизматической традиции последующего Сефевидского периода.

**Ключевые слова:** монеты Ильханов, нумизматика, шиитская идеология, двенадцать имамов, сакральная семиотика, монетные дворы

## SEMIOTIC AND SACRAL CODES OF SHI'A IDEOLOGY ON ILKHANID COINS (BASED ON PERSIAN-LANGUAGE SOURCES AND REGIONAL NUMISMATIC MATERIALS)

**Ganira A. PIRGULIYEVA**

### SUMMARY

This article examines the semiotic and sacral elements of Shi'a ideology on Ilkhanid coins (13th–14th centuries) through a comparative reading of Persian-language scholarship and regional numismatic materials from the Azerbaijan–Iran area. The study argues that Ilkhanid coinage served not only as currency but also as a mechanism of early ideological legitimization of the Imamate. It shows that the epigraphic shift that began under Ghazan acquired a systematic character under Oljeitu (Muhammad Khudabanda) and was consolidated under Abu Sa'id through the mint network. The paper analyzes formulas such as 'Ali Wali Allah', 'Twelve Imams', and 'Sahib al-Zaman', together with their sign-based codes (alif dominance, dot-line combinations, etc.). The findings suggest that Ilkhanid monetary semiotics formed an ideological foundation for the sacral-numismatic tradition of the subsequent Safavid period.

**Keywords:** Ilkhanid coins, numismatics, Shi'a ideology, Twelve Imams, sacral semiotics, mints